HƏMRƏYLİK GÜNÜNÜZ VƏ YENİ İLİNİZ MÜBARƏK 2020

ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

# MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 12 (4908) • 28 DEKABR 2019-cu il • Qəzet 1932-ci ildən çıxır

## Goranboyda Ümummilli Liderin xatirəsi ehtiramla yad edilib



Müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfatından 16 il ötür. Anım günü ilə əlaqədar olaraq Heydər Əliyevin abidəsi önündə izdiham müşahidə edilib. Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, şəhər rəsmiləri, ictimaiyyət nümayəndələri, hüquq mühafizə orqanları işçiləri, idarə və təşkilatların kollektivləri, gənclər və şəhər sakinləri, ümumilikdə 8 mindən artıq goranboylu Ulu Öndər Heydər Əliyevi dərin ehtiramla yad ediblər. Mərasim iştirakçıları Ümummilli Liderin Goranboyda ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, xatirəsinə dərin hörmət ifadə ediblər.

Sonra Heydər Əliyev Mərkəzinə ekskursiya edilərək Ümummilli Liderin həyat və idarəçilik fəaliyyətini əks etdirən eksponantlara baxış keçirildi, xüsusi videoçarx izlənildi.

Ürəyi daim xalq üçün, Vətən üçün döyünən Heydər Əliyevin parlaq ideyaları bu gün də yaşayır və qalib gəlir, işıqlı sabaha, xoşbəxt gələcəyə gedən yolumuza nur saçır.



## YERLƏRDƏ SƏYYAR QƏBULLAR DAVAM EDİR

### Boluslu kəndində



Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin növbəti görüşü rayonun 3 kənd və bir qəsəbəsini əhatə edən Boluslu kəndində reallaşdı. Vətəndaşlarla görüşdə rayonun hüquq mühafizə orqanlarının, idarə , müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak edirdi.

Görüşü Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq bildirdi ki, mütəmadi olaraq əhali ilə keçirilən görüşlərdə əsas məqsəd kəndlərdə ümumi vəziyyəti öyrənmək və sakinlərdə narahatçılıq yaradan məsələləri həll etməkdir. İcra başçısı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən verilən sərəncamların əhəmiyyətindən, həmçinin aqrar sahənin inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlərdən, dövlət başçısının bu sahəyə göstərdiyi diqqət və qayğıdan danışmışdır.



Rayon rəhbəri Goranboyun sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən və gələcək perspektivlərdən söz açmışdır.

Sonra vətəndaşların müraciətləri dinlənildi. Sakinlərdən Kamil Qocayev, Elxan Məmmədov, Əli Qarayev, Vəfa Yusibova, Pənah Babayev və digərləri təsərrüfat suyunun çatışmamasını, içməli suyun olmamasını, bəzi küçələrdə qaz təzyiqinin axşam saatlarında az olmasını, bəzi işıq dirəklərinin, elektrik naqillərinin köhnə olmasını, əraziyə yeni artezian quyusunun qazılmasının plana salınmasını dilə gətirdilər.

Səsləndirilən müraciətlərin həlli ilə əlaqədar icra başçısı aidiyyatı qurumlara tapşırıqlarını verdi.

Sakinlər göstərilən diqqət və qayğıya görə ölkə prezidentinə minnətdarlıqlarını bildirdilər.

**Xuraman ABBASOVA.**

## Heydər Əliyev və Azərbaycançılıq ideologiyası

04 dekabr 2019-cu il tarixdə Mərkəzi Kitabxananın Oxu zalında Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar "Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" adlı tədbir keçirildi.

Tədbirdə rayon mədəniyyət müəs- sisələrinin əməkdaşları iştirak edirdi. Tədbiri giriş sözü ilə Oxu zalının müdiri Sevda Əliyeva açdı.

Ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sevda Əliyeva məruzə ilə çıxış edərək Heydər Əliyevin Azərbaycan üçün etdiyi tarixi xidmətlərindən danışaraq, onun azərbaycançılıq ideologiyasının misilsiz olduğunu vurğuladı. Azərbaycan dilinə münasibətindən danışdı.

Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Ulu öndərin əvəz- olunmaz xidmətlərini qeyd etdi.

Məruzə ətrafı çıxışlar oldu. Xidmət şöbəsinin fond bölmə müdiri Gülnar Nəcəfova və baş biblioqraf Nəzakət Talıbova çıxış edərək Heydər Əliyevin həyatının gənclər üçün örnək olduğunu qeyd etdi. Şəhər kitabxana filialının multumedia resusrları üzrə mütəxəssisi Kəmalə İsmayılova, Heydər Əliyev Mərkəzinin əməkdaşı Yaqut Quliyeva çıxış edərək Heydər Əliyevin xalqın qəlbində əbədi yaşayacağını qeyd etdilər.

Tədbirin sonunda tədbir iştirakçıları Ulu öndərə həsr olunmuş video-çarxa baxdılar.

**Gülnarə NƏSİBOVA,**
**Mərkəzi kitabxana.**

